| “RAZILAŞDIRILMIŞDIR” | “TƏSDİQ EDİLMİŞDİR” |
|---|---|
| **Azərbaycan Respublikasının Mərkəzi Bankı** | **“Qala Həyat” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti** |
| **Baş direktor** | **İdarə Heyətinin sədri** |
| **Ziya Əliyev** | **Anar Talıbov** |
| “10” oktyabr 2023-cü il | “2” oktyabr 2023-cü il |

# Həyatın Yaşam sığortası Qaydaları

**Bakı - 2023**

## Ümumi anlayışlar

Həyatın yaşam sığortası qaydaları (bundan sonra - Qaydalar) "Qala Həyat" Sığorta Şirkəti ASC-nin həyata keçirdiyi sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə Sığorta olunanın ölümü və yaxud sığorta müqaviləsində müəyyən edilmiş yaşa, müddətə qədər yaşadığı halda sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan həyatın yaşam sığortası könüllü sığorta növü üzrə qayda və şərtləri müəyyən edir.

Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Sığorta fəaliyyəti haqqında" Qanununa və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

Əgər qaydaların məzmununda başqa hal nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

**Sığortalı** - Sığortaçı ilə bu Qaydalar əsasında müqavilə bağlayan, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;

**Sığortaçı** - "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs "Qala Həyat" Sığorta Şirkəti ASC;

**Sığorta olunan** - sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan şəxs. Fiziki şəxs olan Sığortalı öz maddi maraqları ilə bağlı bu Qaydalar əsasında müqavilə bağladıqda həm də Sığorta olunan qismində çıxış edir. Əgər Sığortalı və Sığorta olunan ayrı-ayrı şəxslərdirsə, müqavilə yalnız Sığorta olunanın və ya onun qanuni nümayəndəsinin yazılı razılığı ilə bağlana bilər;

**Faydalanan şəxs** - sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxs. Faydalanan şəxs qismində Sığorta olunan, onun öldüyü halda isə müqavilədə müvafiq olaraq fayda əldə edən qismində göstərilmiş şəxs çıxış edir.

**Aktuari** - qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyatlarını hesablayan mütəxəssis;

**Sığorta müqaviləsi** - Sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində Sığorta olunanın ölümü və yaxud sığorta müqaviləsində müəyyən edilmiş yaşa, müddətə qədər yaşadığı halda sığorta ödənişinin həyata keçirilməsi şərtlərinin təsbit edildiyi razılaşma;

**Sığorta şəhadətnaməsi** - sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, Sığortaçı tərəfindən Sığortalıya və (və ya) Sığorta olunana verilən sənəd;

**Sığorta riski** - sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı Sığortaçının üzərinə götürdüyü öhdəlik;

**Sığorta obyekti** - Sığortalının, yaxud Sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi;

**Sığorta predmeti** - sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya hal;

**Sığorta hadisəsi** - sığorta müqaviləsinə görə sığorta ödənişinin Sığortalıya, Sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

**Sığorta məbləği** - sığortalanmış risklər üzrə Sığortaçının öhdəliyinin son həddi. Sığorta məbləğinin və ya sığorta təminatının həcmi tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir;

**Sığorta haqqı** - risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsi ilə nəzərdə tutulan qaydada Sığortalının Sığortaçıya ödəməli olduğu pul məbləği;

**Sığorta ödənişi** - sığorta hadisəsi baş verdikdə, sığorta müqaviləsinə uyğun olaraq Sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

**Bədbəxt hadisə** - kənar fiziki təsirlə əlaqədar olan və Sığorta olunanın bədən üzvlərinin, toxumalarının zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin pozulması halı ilə müşayiət olunan qəfil, gözlənilməz və təsadüfi hadisə;

**Öncədən mövcud olan vəziyyət/xəstəlik** - sığorta müqaviləsi bağlandığı anda artıq diaqnozu qoyulmuş yaxud əlamətləri ilə özünü bildirən, Sığortalı, Sığorta olunanın əvvəlcədən xəbərdar olduğu və ya xəbərdar olmalı olduğu səhhətin pisləşməsi, zədə, travma, patologiya, xroniki və ya kəskin xəstəlik, psixi və ya nevroloji pozğunluq və digər vəziyyətlər və ya xəstəliklər;

**Qaytarılan məbləğ** - müqavilənin vaxtından əvvəl xitam olunduğu halda Sığortalıya, Sığorta olunana və ya faydalanan şəxsə ödənilməli olan pul məbləği;

**Riskli məbləğ** - sığorta məbləği ilə müqavilənin qüvvədə olduğu hər hansı günədək yaradılmış sığorta haqlarının riyazi sığorta ehtiyatının sığorta məbləği arasındakı fərq;

**Riyazi sığorta ehtiyatı** - hesabat tarixinə qədər baş verməmiş, lakin sığorta (təkrarsığorta) müqaviləsinin qüvvədə olma müddətində gələcəkdə baş verməsi mümkün ola bilən sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı Sığortaçının (təkrarsığortaçının) öhdəliyi;

**Sığorta tarifi** – sığorta haqqının hesablanması üçün müəyyən edilən dərəcə;

**İllik gəlirlilik norması** - yaşam sığortası sinfi üzrə sığorta haqlarının hesablanması məqsədi ilə sığorta müddətinin hər bir sığorta ili üçün illik faiz dərəcəsi;

**Elektron sənəd** - informasiya sistemində istifadə üçün elektron formada təqdim edilən və elektron imza ilə təsdiq olunmuş sənəd;

**Elektron imza** - digər verilənlərə əlavə edilən və ya onlarla məntiqi əlaqəli olan, imza sahibini identikləşdirməyə imkan verən verilənlər;

**Gözləmə müddəti** - sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin sığorta təminatı ilə əhatə olunmayan və Sığortalının üzərində qalan hissəsi.

## 1. Sığortanın sinfi

Sığorta obyektinə görə şəxsi sığortaya aid olan sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə Sığorta olunanın öldüyü, yaxud sığorta müqaviləsində müəyyən edilmiş yaşa, müddətə qədər yaşadığı halda sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan həyatın yaşam sığortası sinfinə aiddir.

## 2. Sığorta obyekti

Bu Qaydalara görə sığorta obyekti Sığortalının, yaxud Sığorta olunanın həyatı ilə əlaqədar əmlak mənafeləridir.

## 3. Sığorta predmeti

Bu Qaydalara əsasən sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs sığortanın predmeti hesab olunur.

## 4. Sığorta haqqı

4.1. Sığorta haqqının miqdarı sığorta müqaviləsində razılaşdırılır.

4.2. Sığorta müqaviləsində sığorta haqqının birdəfəlik və ya hissə-hissə ödənilməsi razılaşdırıla bilər.

4.3. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 4.4-cü bəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

4.4. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

4.5. Elektron sənəd formasında olan sığorta müqaviləsi üzrə sığorta haqqının ödənilməsi Sığortalının bu Qaydalar və sığorta müqaviləsinin şərtləri ilə tanış olmasını, həmin Qaydalar və şərtlərlə razılığını, həmçinin sığorta müqaviləsinin bağlanması faktını təsdiqləyir.

## 5. Sığorta məbləği

5.1. Sığorta məbləği sığorta müqaviləsi ilə müəyyənləşdirilir.

5.2. Sığorta müqaviləsində nəzərdə tutulan hallarda, sığorta ödənişi verildikdən sonra sığorta məbləği ödənilmiş məbləğ həcmində azalır. Sığorta məbləğinin azaldılması sığorta hadisəsi baş verdiyi tarixdən tətbiq olunur.

5.3. Tərəflərin razılığı ilə, Sığortalı əlavə sığorta haqqı müqabilində ilkin sığorta məbləğini bərpa edə bilər.

## 6. Sığorta riskləri

6.1. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsi üzrə Sığortaçı Sığortalıya, Qaydaların istisnalar bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla aşağıdakı risklərdən sığorta təminatı verir:

6.1.1. sığorta təminatının qüvvədə olduğu müddət ərzində Sığorta olunanın ölümü;

6.1.2. Sığorta olunanın sığorta müqaviləsində müəyyən edilmiş yaşa, müddətə qədər yaşaması.

## 7. İstisnalar

7.1. Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, bu Qaydalara əsasən bağlanmış sığorta müqavilələrində təminat verilmiş hadisələr aşağıdakılar nəticəsində baş vermişdirsə, sığorta hadisəsi hesab edilmir:

7.1.1. Sığorta olunanın üçüncü şəxslərin qanunazidd hərəkətləri nəticəsində özünü öldürmək həddinə çatdırılması və ya intihara məcbur edilmə halları istisna olmaqla, Sığorta olunanın sığorta müqaviləsinin bağlanmasından sonra intiharı;

7.1.2. Sığorta olunanın hərbi əməliyyatlarda, vətəndaş qarşıdurmalarında, terror aktlarında, hərbi çevrilişlərdə, kütləvi iğtişaşlarda, hakimiyyətin zorla ələ keçirilməsində iştirak etməsi, həmçinin Sığorta olunanın hərbi xidmət keçməsi, hərbi toplanışlarda, təlimlərdə, rəsmi elan edilmiş yaxud edilməmiş müharibədə iştirak etməsi və s. bu kimi hallar;

7.1.3. nüvə partlayışlarının, şüalanma və radioaktiv çirklənmənin, epidemiyaların və pandemiyanın təsiri;

7.1.4. Sığorta olunanın alkoqollu, narkotik və ya toksik maddələri qəbul etməsi və onun təsiri nəticəsində baş vermiş hadisələr, o cümlədən qeyd olunanların qəbulu nəticəsində yaranmış sərxoş vəziyyətdə nəqliyyat vasitəsini idarə etməsi və yə nəqliyyat vasitəsini belə sərxoş vəziyyətdə olan şəxsə, uyğun kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsə idarə etmək üçün verməsi;

7.1.5. Sığorta olunanın anlaqsız vəziyyətdə olması, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, əqli gerilik və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini dərk etməməsi və ya onu idarə edə bilməməsi;

7.1.6. Sığorta olunanın nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan nəqliyyat vasitəsini idarə etməsi;

7.1.7. Sığorta olunanın özünün idarə etdiyi uçuş aparatının, o cümlədən deltaplanın və paraşütün qəzaya uğraması, Sığorta olunanın sertifikatlaşdırılmış avia heyət tərəfindən və xüsusi qaydada aparılan aviauçuşda sərnişin qismində iştirak etməsi istisna olmaqla, hər hansı aviauçuşlarda iştirak etməsi;

7.1.8. Sığorta olunanın təhlükəli iş və ya təhlükəli idman növləri (avto-moto idman, paraşütlə tullanma, əlbəyaxa döyüş, alpinizm, dağ və su turizmi, sualtı üzgüçülük, dalğıclıq, atçılıq və s.) ilə məşğul olması;

7.1.9. insan həyatını xilas etmək məqsədi ilə edildiyi hallar istisna olmaqla, Sığorta olunanın bilərəkdən özünü təhlükə altına atması, qəsdən özünə xəsarət yetirməsi, öz səhhətinə ziyan vurması;

7.1.10. Sığorta olunanın tibbi məsləhətə riayət etməməsi, bilərəkdən tibbi yardım və müalicə üçün müraciət etməməsi;

7.1.11. Sığorta olunanın həkimlik fəaliyyəti ilə məşğul olmaq hüququ olmayan şəxs tərəfindən yazılmış tibbi müayinələrdən keçməsi, müalicə və əməliyyat edilməsi və ya belə şəxslər tərəfindən təyin edilmiş dərmanların qəbulu;

7.1.12. hauptvaxt, müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri və ya həbsxanalarda ölüm;

7.1.13. həkim təyinatı olmadan və ya həkimin təyinatı olsa belə, qəbuletmə qaydalarının pozulması ilə Sığorta olunanın psixotrop maddələri və dərmanları qəbul etməsi;

7.1.14. qazanılmış immunçatışmazlığı sindromu (QİÇS), immunçatışmazlığı virusu (İÇV), yaxud digər oxşar xəstəliklər və belə xəstəliklər ilə əlaqədar meydana gələn bütün vəziyyətlər;

7.1.15. həkim nəzarəti olmadan doğuş və doğuşun ağırlaşması halları, həkim təyinatı və nəzarəti olmadan hamiləliyin süni surətdə pozulması və ya digər cərrahi müdaxilələr.

7.2. Bu Qaydalarda nəzərdə tutulan istisnalar və məhdudiyyətlər sığorta müqaviləsində razılaşdırmaqla sığorta təminatına daxil edilə bilər.

## 8. Sığorta müqaviləsi

8.1. Bu Qaydalar əsasında bağlanılan həyat sığortası müqaviləsinə görə Sığortaçı müqavilə ilə razılaşdırılmış və Sığortalının ödədiyi sığorta haqqı müqabilində Sığortalının özünün və ya müqavilədə Sığorta olunan qismində göstərilən başqa şəxsin müqavilədə göstərilmiş sığorta hadisəsinin baş verdiyi təqdirdə müqavilə ilə şərtləşdirilmiş sığorta məbləğini birdəfəlik sığorta ödənişi və ya vaxtaşırı ödənişlər şəklində faydalanan şəxsə ödəməyi öhdəsinə götürür.

8.2. Sığorta müqaviləsi, Sığortalı fiziki şəxs olduğu halda onun sığortalanma haqqında ərizəsi, hüquqi şəxs olduğu halda isə Sığortaçı tərəfindən müəyyən edilən Sığorta olunanların siyahısı və sorğu forması əsasında bağlanılır.

8.3. Sığorta müqaviləsi yazılı olaraq aşağıdakı hər hansı bir formada bağlanılır:

8.3.1. tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;

8.3.2. müvafiq Qaydalar ilə Sığortalının razı olmasını təsdiq etməsi şərti ilə Sığortaçı tərəfindən ona sığorta Qaydaları əlavə edilməklə sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;

8.4. Bu Qaydaların 8.3.2-ci bəndində nəzərdə tutulmuş halda sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

8.5. Bu Qaydaların 8.3-cü bəndində nəzərdə tutulmuş sığorta müqaviləsinin formaları elektron imza vasitəsilə, həmçinin tərəflərin imza və/və ya möhürünün skan və ya digər vasitə ilə surətinin çıxarılması yolu ilə də bağlana bilər.

8.6. Sığorta müqaviləsi bağlanarkən Sığortaçı Sığortalıya hamı tərəfindən asanlıqla başa düşülən üslubda tərtib edilmiş və aşağıdakıları əks etdirən yaddaş vərəqi verməlidir:

8.6.1. sığorta hadisəsi hesab edilə bilən halın baş verdiyi zaman necə hərəkət etməyin lazım olduğunu;

8.6.2. Sığortaçının sığorta ödənişindən imtina etməsinin qanuni əsaslarını.

8.7. Sığorta müqaviləsi bağlanarkən Sığortaçı Sığorta olunanın səhhətinin mövcud vəziyyətini qiymətləndirmək məqsədilə onun sığorta müqaviləsinin şərtlərindən asılı olaraq öz hesabına və ya Sığortalının (Sığorta olunanın) hesabına müayinə olunmasını tələb edə bilər.

8.8. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta şəhadətnaməsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənildiyi gün, qrup halında sığorta zamanı isə sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən 3 iş günü müddətində verilməlidir.

8.9. Müqavilədə bir neçə şəxsin sığorta haqqının ödənilməsində payçı kimi iştirakı nəzərdə tutula bilər. Bu halda həmin şəxslər birgə Sığortalı kimi çıxış edirlər.

8.10. Sığorta müqaviləsinə onun qüvvədə olduğu müddətdə qanunvericiliyə və bu Qaydaların şərtlərinə uyğun əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər sığorta müqaviləsinin tərkib hissəsini təşkil edir.

## 9. Sığorta müddəti və sığorta ərazisi

9.1. Sığorta müddəti sığorta müqaviləsi ilə müəyyən olunur.

9.2. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsi halında, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu

gün saat iyirmi dörddə başa çatır.

9.3. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsinin qüvvədə olduğu əraziyə məhdudiyyət tətbiq edilmir.

## 10. Sığorta müqaviləsinin tərəflərinin hüquq və vəzifələri

**10.1. Sığortalı və Sığorta olunanın hüquqları:**

10.1.1. sığorta müqaviləsi bağlanarkən Sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq;

10.1.2. sığorta şəhadətnaməsi itdikdə və ya məhv olduqda Sığortaçıdan onun dublikatını almaq;

10.1.3. sığorta müqaviləsinin şərtləri və bu Qaydalar barədə Sığortaçıdan izahatlar almaq;

10.1.4. sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsi təklifi ilə çıxış etmək;

10.1.5. Sığorta olunan, fiziki şəxs Sığortalının öldüyü və ya hüquqi şəxs Sığortalının ləğv edildiyi halda, mövcud qanunvericilikdə, həmçinin Sığortalı və Sığortaçı arasındakı razılaşmada nəzərdə tutulan qaydada Sığortalının müqavilədə və Qaydalarda nəzərədə tutulan vəzifələrini yerinə yetirmək;

10.1.6. sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi (şəxsləri) faydalanan şəxs kimi təyin etmək habelə sığorta hadisəsi baş verənədək onu dəyişdirmək;

10.1.7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və bu Qaydalarda nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək;

**10.2. Sığortalı və Sığorta olunanın vəzifələri:**

10.2.1. sığortalanma haqqında ərizədə qoyulan suallara doğru cavablar vermək;

10.2.2. sığorta haqqını sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə və miqdarda ödəmək;

10.2.3. sığorta müqaviləsi bağlanarkən Sığortalının özünə məlum olan, habelə Sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə Sığortaçıya məlumat vermək;

10.2.4. bu Qaydaların 10.2.3-cü bəndinə uyğun olaraq bildirilmiş hallarla bağlı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan bütün dəyişikliklər barədə 10 (on) iş günü ərzində Sığortaçıya və ya sığortaçının adından çıxış edən sığorta vasitəçisinə məlumat vermək;

10.2.5. Sığortaçıya faydalanan şəxs barədə düzgün məlumat vermək;

10.2.6. sığorta hadisəsi baş vedikdə bu barədə xəbər tutduqdan dərhal sonra ya mümkün olan ən qısa müddət ərzində Sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər vermək. Bu vəzifə faydalanan şəxs tərəfindən də yerinə yetirilə bilər;

10.2.7. Sığortaçıya və ya onun nümayəndəsinə sığorta hadisəsi ilə əlaqəsi olan məlumatı sərbəst əldə etmək imkanı yaratmaq;

10.2.8. Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulan və bu Qaydalardan irəli gələn digər vəzifələri yerinə yetirmək.

**10.3. Sığortaçının hüquqları:**

10.3.1. Sığortalının və Sığorta olunanın verdiyi məlumatların düzgünlüyünü yoxlamaq;

10.3.2. Sığorta olunan şəxsin səhhətinin mövcud vəziyyətini qiymətləndirmək məqsədi ilə onun sığorta müqaviləsinin şərtlərindən asılı olaraq, öz hesabına və ya Sığortalının hesabına müayinə olunmasını tələb etmək;

10.3.3. Sığortalı sığorta müqaviləsinin bağlanması zamanı qəsdən özünün məlumat vermək vəzifəsini icra etmədikdə müqavilənin bağlandığı vaxtdan 5 il müddət keçənədək Sığortaçı müqavilə üzrə vəzifələrinin icrasından imtina etmək və sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etmək;

10.3.4. sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmayıbsa, sığorta hadisəsi baş verdiyi andan 3 il müddətində bu Qaydaların 14.3-14.4-cü bəndlərində nəzərdə tutulmuş müvafiq sənədlər Sığortaçıya təqdim edilməsə, sığorta ödənişinin verilməsindən imtina etmək;

10.3.5. sığorta ödənişinin verilməsi zamanı sığorta ödənişi məbləğindən Sığortalının ona

ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq;

10.3.6. Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə nəzərdə tutulmuş və bu Qaydalardan irəli gələn digər hüquqlardan istifadə etmək.

**10.4. Sığortaçının vəzifələri:**

10.4.1. bu Qaydalar əsasında sığorta müqaviləsi bağlanarkən Sığortalını bu Qaydalar ilə tanış etmək;

10.4.2. sığorta müqaviləsi bağlanarkən Sığortalıya hamı tərəfindən asanlıqla başa düşülən üslubda tərtib edilmiş yaddaş vərəqini vermək;

10.4.3. Sığortalıya bu Qaydalar əlavə edilmiş sığorta şəhadətnaməsi vermək;

10.4.4. sığorta hadisəsi baş verdikdə bu Qaydaların 14.3-14.4-cü bəndlərində nəzərdə tutulmuş sənədlərdən sonuncusunu aldığı tarixdən 7 iş günündən gec olmayaraq sığorta ödənişini vermək, yaxud Sığortalıya, Sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etmək;

10.4.5. sığorta hadisəsinin baş verməsi barədə Sığortaçıya məlumat vermiş Sığortalı və ya Sığorta olunan şəxs, həmçinin faydalanan şəxs səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmaq;

10.4.6. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə sığorta sirri hesab edilən məlumatların məxfiliyini təmin etmək;

10.4.7. sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu göndərmək;

10.4.8. Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə nəzərdə tutulmuş və bu Qaydalardan irəli gələn digər vəzifələri yerinə yetirmək.

## 11. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi

11.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

11.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;

11.1.2. aşağıdakı hallar istisna olmaqla, Sığortalı fiziki şəxs öldükdə və ya Sığortalı hüquqi şəxsin fəaliyyəti dayandırıldıqda və ya ləğv olunduqda:

11.1.2.1. başqa şəxsin xeyrinə həyat sığortası müqaviləsi bağlamış Sığortalı vəfat etdikdə, onun hüquq və vəzifələri xeyrinə sığorta müqaviləsi bağlanmış şəxsə həmin şəxsin yazılı razılığı ilə keçir;

11.1.2.2. Sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri hüquqi varisinə keçir.

11.1.3. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

11.1.4. Sığortaçı Sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;

11.1.5. sığorta marağı artıq mövcud olmadıqda;

11.1.6. Sığortalı sığorta haqqını sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

11.1.7. Sığortalı və ya Sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə.

11.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə fiziki şəxs olan Sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, Sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

## 12. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə

12.1. Bu Qaydaların 11.1-ci bəndində göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda bu Qaydaların 11.2-ci bəndi nəzərə alınmaqla müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

12.2. Sığorta müqaviləsinə bu Qaydaların 11.1.8-ci bəndinə uyğun olaraq Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

## 13. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri

13.1. Sığorta müqaviləsinə Sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, Sığortaçı həmin müqavilə üzrə sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi Sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı sığorta haqlarını bütünlüklə Sığortalıya qaytarır.

13.2. Sığorta müqaviləsinə Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını bütünlüklə Sığortalıya qaytarır; əgər bu tələb Sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır. Bu halda Sığortaçı sığorta müqaviləsi üzrə sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

13.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı Sığortalıya qaytarılmır.

13.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının Sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 13.1-ci və 13.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

13.5. Sığorta müqaviləsi bu Qaydaların 11.2-ci maddəsində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə Sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Qaydaların 13.3-cü və 13.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, Sığortalının qanuni nümayəndəsinə qaytarır.

## 14. Sığorta ödənişinin həyata keçirilməsi qaydası

14.1. Müqavilə bağlanarkən razılaşdırılan sığorta məbləğinin ödənişi Sığortaçı tərəfindən faydalanan şəxsə yalnız sığorta haqqının müqavilə ilə müəyyən edilmiş miqdarda və qaydada ödənilmiş olması şərtilə verilir.

14.2. Əgər sığorta hadisəsi hissəvi şəkildə ödənilən sığorta haqqının ödənilməsinin güzəşt müddətinin başa çatmasından sonra baş vermiş lakin müvafiq sığorta haqqı həmin güzəşt müddətinin sonuna qədər ödənilməmişdirsə, Sığortaçının sığorta ödənişinin həyata keçirilməsindən imtina etmək və müəyyən edilmiş qaydada sığorta müqaviləsinə xitam vermək hüququ yaranır.

14.3. Sığorta ödənişi aşağıdakı sənədlər təqdim edildiyi halda həyata keçirilir:

a) sığorta hadisəsi baş verdikdə, Sığortalının, Sığorta olunanın və ya faydalanan şəxsin Sığortaçıya ünvanladığı sığorta tələbi;

b) sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanının belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənəd;

c) sığorta şəhadətnaməsi (sığortalanma haqqında ərizəsi və əlavələri ilə);

d) Sığorta olunanın şəxsiyyətini təsdiq edən sənədin surəti;

e) Sığortalının və yaxud faydalanan şəxsin şəxsiyyətini təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti;

f) Sığorta olunan vəfat etdikdə, ölüm haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;

g) faydalanan şəxs müəyyən edilməmişdirsə, vərəsəlik haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti.

14.4. Sığortaçı baş vermiş hadisənin səbəblərini və ya sığorta hadisəsi olması faktını müəyyən etmək üçün zəruri olan aşağıdakı sənədləri də əsaslandırılmış şəkildə tələb edə bilər:

a) Sığorta olunan vəfat edibsə ölümün səbəbi haqqında tibbi arayış, ölüm haqqında tibbi şəhadətnamə;

b) epikriz, xəstəlik tarixçəsindən çıxarış;

c) ambulator kartadan çıxarış;

d) əmək müqaviləsi.

14.5. Əgər faydalanan şəxs Sığorta olunanın ölümü halında müqaviləyə uyğun olaraq ona ödənilməli olan sığorta təminatını almadan ölərsə, sığorta ödənişi həmin faydalanan şəxsin vərəsələrinə verilir.

14.6. Ödəniş qanunla müəyyən olunmuş qaydada təsdiq edilmiş etibarnamə əsasında Sığorta olunanın (faydalanan şəxsin) nümayəndəsinə verilə bilər.

14.7. Sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, sığorta hadisəsi baş verdikdə bu Qaydaların 14.3-14.4-cü bəndlərində nəzərdə tutulmuş müvafiq sənədlərin sonuncusu Sığortaçıya daxil olduğu tarixdən 7 iş günündən gec olmayaraq Sığortaçı sığorta ödənişini həyata keçirir və ya Sığortalıya, Sığorta olunana və ya faydalanan şəxsə yazılı şəkildə imtina haqqında əsaslandırılmış bildiriş təqdim edir.

14.8. Faydalanan şəxs 18 yaşına çatmamışdırsa, ona verilməli olan sığorta ödənişi onun qanuni nümayəndəsinin yazılı razılığı ilə müəyyən edilmiş bankda faydalanan şəxsin adına açılmış hesaba qoyulur.

## 15. Ödənişdən imtinanın əsasları

15.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

15.1.1. bu Qaydaların 10.2.7-ci bəndinin tələblərinə əməl edilməməsi nəticəsində Sığortaçının hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması;

15.1.2. Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına Sığortalı, Sığorta olunan və faydalanan şəxs tərəfindən bu Qaydaların 10.2.6-cı bəndinin tələblərinə əməl edilməməsi yolu ilə maneçilik törədilməsi;

15.2.3. baş vermiş hadisənin qanunvericiliyə, bu Qaydalara və ya sığorta müqaviləsinə əsasən sığorta hadisəsi hesab edilməməsi;

15.2.4. Sığortalının, Sığorta olunanın, faydalanan şəxsin Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, müvafiq hadisənin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə hadisə ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

15.2.5. müqavilə ilə hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda, hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

15.2.6. sığorta predmeti, həmçinin Sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində Sığortalının Sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində Sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması (bu zaman Sığortaçı məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən Sığortaçıya məlum olduqda və ya Sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, habelə tələb olunan məlumata Sığortalının cavab verməməsinə baxmayaraq sığorta müqaviləsi bağlanmış olduğu halda Sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi və ya tələb olunan məlumatın verilməməsi faktına əsaslana bilməz);

15.2.7. sığorta haqqının növbəti hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu Qaydaların 4.3-cü bəndində nəzərdə tutulmuş halda isə Sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsinin ödənilməmiş olması;

15.2.8. müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, hadisənin baş verməsinin səbəbi

təminata istisna hesab olunan halların nəticəsi olması;

15.2.9. Sığortalının və ya Sığorta olunanın bu Qaydaların 10.2-ci bəndinin tələblərinə əməl etməməsi;

15.2.10. sığorta müqaviləsinin qüvvəyə mindiyi tarixdən sonra aşkar edilmiş Sığortalının, Sığorta olunanın sığortalanma haqqında ərizədə verilmiş suallara qəsdən həqiqətə uyğun olmayan cavabların verməsi, o şərtlə ki, sığorta müqaviləsi bağlandığı tarixdən 5 il keçməmişdir.

## 16. Tərəflərin məsuliyyəti

16.1. Bu Qaydaların şərtlərinin yerinə yetirilməməsinə yə ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## 17. Mübahisələrin həlli qaydası

17.1. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələr tərəflərin qarşılıqlı razılığı ilə həll olunur.

17.2. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələrin həllində tərəflər arasında qarşılıqlı razılığın əldə olunması mümkün olmadıqda, mübahisələr məhkəmə qaydasında həll edilir. Sığorta müqaviləsi üzrə hüquqlarının Sığortaçı tərəfindən pozulduğunu hesab edən Sığortalı, Sığorta olunan və ya faydalanan şəxs Azərbaycan Respublikasının Mərkəzi Bankına şikayət ərizəsi ilə müraciət edə bilər.

## 18. Şərtlər

Sığorta müqaviləsində bu Qaydalara və qüvvədə olan qanunvericiliyə zidd olmayan xüsusi şərtlər müəyyən oluna bilər.

## 19. Borcun verilməsi

19.1. Sığortaçı Sığorta olunana qanunvericiliklə nəzərdə tutulmuş qaydada borc verə bilər.

19.2 Bu maddədə nəzərdə tutulan borcun verilməsi AR Mülki Məcəlləsi və AR Mərkəzi Bankının təyin etdiyi qaydalara əsasən həyata keçirilir.

## 20. Yekun müddəalar

20.1. Tərəflər müqavilənin icra edilməsi və ya xitamı ilə bağlı bütün xəbərdarlıq və məlumatları sığorta müqaviləsində qeyd olunan ünvanlara və ya əlaqə vasitələrinə (poçt ünvanı, müqavilədə nəzərdə tutulmuş hallarda elektron ünvan və ya digər əlaqə vasitələri) göndərirlər. Ünvanlar və ya əlaqə vasitələri dəyişdiyi halda, bir tərəf o biri tərəfi dəyişikliyin baş verdiyi tarixdən 10 (on) iş günü ərzində yazılı şəkildə məlumatlandırmalıdır. Əgər bir tərəf o biri tərəfi ünvanlar və ya əlaqə vasitələrinin dəyişilməsi barədə əvvəlcədən məlumatlandırmayıbsa, köhnə ünvan və ya əlaqə vasitələrinə göndərilən xəbərdarlıq və məlumatlar çatdırılmış kimi qəbul olunur.

## 21. Sığorta tarifləri və onların iqtisadi əsaslandırılması

21.1. Həyatın yaşam sığortası üzrə sığorta haqlarının hesablanmasında istifadə olunan kəmiyyətlər aşağıdakı düsturlarla hesablanır:

x yaşlı şəxsin n il müddətində yaşam riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri aşağıdakı düstura əsasən hesablanır:

$$_nE_x = v^n {}_np_x$$

Burada ${}_n p_x$ x yaşlı şəxsin n il yaşaması ehtimalı, i isə illik faiz dərəcəsidir. $v$ isə diskontlaşdırma vuruğudur və aşağıdakı düsturla hesablanır:

$$v = 1/(1+i)$$

${}_nE_x$-in komutasiyon funksiyalar vasitəsi ilə ifadə düsturu aşağıdakı kimidir:

$${}_nE_x = \frac{D_{x+n}}{D_x}$$

x yaşlı şəxsin n il müddətində ölüm riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri aşağıdakı düstura əsasən hesablanır:

$$\bar{A}^1_{x:\overline{n}|} = \frac{i}{\delta} \times \sum_{t=0}^{n-1} v^{t+1} {}_tp_x \, q_{x+t}$$

Burada $q_x$ x yaşlı şəxsin qarşıdakı il ərzində ölməsi ehtimalıdır və onun qiymətləri Əlavə 1-də qeyd edilmişdir.

Bu kəmiyyətin komutasiyon funksiyalar vasitəsi ilə ifadə düsturu aşağıdakı kimidir:

$$\bar{A}^1_{x:\overline{n}|} = \sum_{t=0}^{n-1} \frac{C_{x+t}}{D_x} = \frac{M_x - M_{x+n}}{D_x}$$

Ölümün yalnız diskret zamanın sonunda baş verməməsini nəzərə alaraq, x yaşlı şəxsin n il müddətində ölüm riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri aşağıdakı düsturla hesablanır:

$$\bar{A}^1_{x:\overline{n}|} = \frac{i}{\delta} \times A^1_{x:\overline{n}|}$$

Burada $\delta$ illik faiz dərəcəsinin intensivliyidir və aşağıdakı kimi hesablanır:

$$\delta = ln(1+i)$$

x yaşlı şəxsə n il müddətində hər bir sığorta ilinin əvvəlində ödənilən vahid məbləğlərin gözlənilən cari dəyəri aşağıdakı düsturla hesablanır:

$$\ddot{a}_{x:\overline{n}|} = 1 + \sum_{t=1}^{n-1} v^t {}_tp_x = 1 + \sum_{t=1}^{n-1} {}_tE_x$$

Bu kəmiyyətin komutasiyon funksiyalar vasitəsi ilə ifadə düsturu aşağıdakı kimidir:

$$\ddot{a}_{x:\overline{n}|} = \frac{N_x - N_{x+n}}{D_x}$$

Müddəti n il olan annuitet sığortası üzrə x yaşlı şəxsə hər bir sığorta ili ərzində m dəfə (ilin 1/m hissələrinin əvvəlində 1/m məbləğində) ödənilən məbləğlərin gözlənilən cari dəyəri aşağıdakı düsturla hesablanır:

$$\ddot{a}^{(m)}_{x:\overline{n}|} = \ddot{a}_{x:\overline{n}|} - \left(\frac{m-1}{2m}\right) \times (1 - {}_nE_x)$$

21.2. Həyatın yaşam sığortası üzrə sığorta məbləği məlum olduqda, n illik sığorta təminatı üçün k (k≤n) il müddətində hər bir sığorta ili ərzində m dəfə bərabər məbləğdə ödənilən sığorta haqqı aşağıdakı düsturla hesablanır:

$$P_m = \frac{(1+\rho_1) \times \overline{A}^{1}_{x:\overline{n}|} \times S + (1+\rho_2) \times {}_nE_x \times S + \alpha \times S + \gamma \times \ddot{a}_{x:\overline{n}|} \times S}{m \times (1-\beta) \times \ddot{a}^{(m)}_{x:\overline{n}|}}$$

Sığorta məbləği məlum olduqda birdəfəlik sığorta haqqı aşağıdakı düsturla hesablanır:

$$P = \frac{(1+\rho_1) \times \overline{A}^{1}_{x:\overline{n}|} \times S + (1+\rho_2) \times {}_nE_x \times S + \alpha \times S + \gamma \times \ddot{a}_{x:\overline{n}|} \times S}{(1-\beta)}$$

21.3. Xüsusi hallarda həyatın yaşam sığortası sinfi üzrə müqavilədə ölüm və yaşam təminatı üzrə sığorta məbləğləri fərqlidirsə bu halda 21.2-ci bənddə qeyd edilən düstur aşağıdakı şəklə düşür:

$$P_m = \frac{(1+\rho_1) \times \overline{A}^{1}_{x:\overline{n}|} \times S_1 + (1+\rho_2) \times {}_nE_x \times S_2 + \alpha \times S + \gamma \times \ddot{a}_{x:\overline{n}|} \times S}{m \times (1-\beta) \times \ddot{a}^{(m)}_{x:\overline{n}|}}$$

Sığorta məbləği məlum olduqda birdəfəlik sığorta haqqı aşağıdakı düsturla hesablanır:

$$P = \frac{(1+\rho_1) \times \overline{A}^{1}_{x:\overline{n}|} \times S_1 + (1+\rho_2) \times {}_nE_x \times S_2 + \alpha \times S + \gamma \times \ddot{a}_{x:\overline{n}|} \times S}{(1-\beta)}$$

S1 - ölüm təminatı üzrə sığorta məbləğidir.
S2 - yaşam təminatı üzrə sığorta məbləğidir.
S - S1 və S2 sığorta məbləğlərindən böyük olanıdır.

21.4. Həyatın yaşam sığortası üzrə sığorta təminatının t-ci ilinin sonuna uzunmüddətli öhdəliklər ehtiyatı (riyazi ehtiyatlar) müvafiq olaraq aşağıdakı düsturlarla hesablanır:

$${}_tV_x = \begin{cases} (1+\rho_1) \times S \times \bar{A}^{1}_{x+t:\overline{n-t}|} + (1+\rho_2) \times S \times {}_{n-t}E_{x+t} + \gamma \times S \times \ddot{a}^{(m)}_{x+t:\overline{n-t}|} - m \times P_m \times (1-\beta) \times \ddot{a}^{(m)}_{x+t:\overline{k-t}|} \\ (1+\rho_1) \times S \times \bar{A}^{1}_{x+t:\overline{n-t}|} + (1+\rho_2) \times S \times {}_{n-t}E_{x+t} + \gamma \times S \times \ddot{a}^{(m)}_{x+t:\overline{n-t}|} \end{cases}$$

Sığorta illərinin arasında olan zaman kəsikləri üçün isə riyazi ehtiyat xətti interpolyasiya metodu ilə qiymətləndirilir:

$${}_tV_x = (1-s) \times {}_tV_x + s \times {}_{t+1}V_x$$

Burada, $0 < s < 1$.
Həyatın yaşam sığortası üzrə sığorta təminatının t-ci ilinin sonunda sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilərsə, qaytarılan məbləğ ${}_tSV_x$ aşağıdakı düstürla hesablanır:

$${}_tSV_x = {}_tV_x - (S - {}_tV_x) \times 2\%$$

Həyat yaşam sığortası üzrə yuxarıdakı bəndlərdə göstərilən düsturlarda iştirak edən α, β, γ, və

əmsalları aşağıdakı mənalara malikdir:

$\alpha$ - sığorta müqaviləsi bağlanarkən çəkilən xərcləri (sığorta vasitəçilərinə hesablanmış komisyon muzdlar çıxılmaqla) ifadə edən və faizlə ifadə olunan əmsaldır;

$\beta$ - sığorta haqlarının ödənilməsi dövrü ərzində onlarla bağlı çəkilən xərcləri ifadə edən və faizlə ifadə olunan əmsaldır;

$\gamma$ - sığorta müavilәsinin qüvvədə olduğu müddət ərzində çəkilən illik inzibati xərcləri ifadə edən və faizlə ifadə olunan əmsaldır;

- ölüm hadisəsi ilə bağlı zərərlərin tənzimlənməsi xərclərini ifadə edən və faizlə ifadə olunan əmsaldır;

- yaşam hadisəsi ilə bağlı zərərlərin tənzimlənməsi xərclərini ifadə edən və faizlə ifadə olunan əmsaldır.

Bu əmsalların qiymətləri Əlavə 2-də göstərilmişdir.

Qeyd: Bu qaydalarda qeyd olunan düsturlarda əks olunan əmsallar aşağıdakı mənaları ifadə edir:

x- şəxsin yaşı
n- (il) müddət
i- faiz dərəcəsi
$\nu$ - diskontlaşdırma vuruğudur
${}_{n}p_{x}$- x yaşlı şəxsin n il yaşaması ehtimalı
${}_{n}E_{x}$- x yaşlı şəxsin n il müddətində yaşam riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri
Si-sığorta məbləği
$\ddot{a}^{(m)}_{x:\overline{n|}}$-annuititet ödənişlərin cari dəyəri (ildə m dəfə)
$q_{x+t}$ x yaşlı şəxsin qarşıdakı t il ərzində ölməsi ehtimalıdır
$q_x$ x yaşlı şəxsin qarşıdakı il ərzində ölməsi ehtimalıdır
$A^{1}_{x:\overline{n|}}$ - diskret hal üçün x yaşlı şəxsin n il müddətində ölüm riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri
$C_{x+t}, D_x, M_x, M_{x+n}, N_x, N_{x+n}$- komutasyon funksiyalar Diskont vurğu və yaşam ehtimalı vasitəsi ilə aşağıdakı kimi hesablanırlar.

$$D_x = l_x \nu^x$$

$$C_x = d_x \nu^{x+1}$$

$$N_x = \sum_{t=0}^{n} D_x$$

$$M_x = \sum_{t=0}^{n} C_x$$

$\delta$ - illik faiz dərəcəsinin intensivliyidir
$\overline{A}^{1}_{x:\overline{n|}}$- x yaşlı şəxsin n il müddətində ölüm riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri
$\ddot{a}_{x:\overline{n|}}$ - x yaşlı şəxsə n il müddətində hər bir sığorta ilinin əvvəlində ödənilən vahid məbləğlərin gözlənilən cari dəyəri
$m$ – il ərzində ödənilən annuitet ödənişlərinin sayı
$S$ -sığorta məbləği
${}_{t}V_{x}$- riyazi ehtiyat
$s$ – interpoliasiya əmsalıdır
${}_{t}SV_{x}$ -qaytarılan məbləğ
$l_x$- yaşında olanların sayı
$d_x$- x yaşından x+1 yaşına keçdikdə ölənlərin sayı

## Həyatın yaşam sığortası qaydalarına Əlavə №1

*Hazırkı Əlavə Həyatın yaşam sığortası qaydalarının ayrılmaz tərkib hissəsini təşkil edir.*

### Ölüm cədvəli

| x | lx | dx | qx | x | lx | dx | qx | x | Lx | dx | Qx |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 0 | 1000 000 | 12 887 | 0,0129 | 36 | 958 740 | 1 859 | 0,0019 | 72 | 533 874 | 32 267 | 0,0604 |
| 1 | 987 113 | 1 906 | 0,0019 | 37 | 956 881 | 2 010 | 0,0021 | 73 | 501 607 | 33 200 | 0,0662 |
| 2 | 985 207 | 1 068 | 0,0011 | 38 | 954 871 | 2 276 | 0,0024 | 74 | 468 407 | 33 449 | 0,0714 |
| 3 | 984 139 | 701 | 0,0007 | 39 | 952 595 | 2 300 | 0,0024 | 75 | 434 958 | 34 489 | 0,0793 |
| 4 | 983 438 | 536 | 0,0005 | 40 | 950 294 | 2 547 | 0,0027 | 76 | 400 470 | 34 058 | 0,0850 |
| 5 | 982 902 | 487 | 0,0005 | 41 | 947 747 | 2 797 | 0,0030 | 77 | 366 412 | 33 118 | 0,0904 |
| 6 | 982 415 | 464 | 0,0005 | 42 | 944 950 | 3 016 | 0,0032 | 78 | 333 294 | 32 793 | 0,0984 |
| 7 | 981 951 | 429 | 0,0004 | 43 | 941 934 | 3 317 | 0,0035 | 79 | 300 501 | 31 694 | 0,1055 |
| 8 | 981 522 | 411 | 0,0004 | 44 | 938 616 | 3 561 | 0,0038 | 80 | 268 807 | 30 578 | 0,1138 |
| 9 | 981 111 | 403 | 0,0004 | 45 | 935 055 | 3 986 | 0,0043 | 81 | 238 229 | 27 247 | 0,1144 |
| 10 | 980 708 | 392 | 0,0004 | 46 | 931 069 | 4 296 | 0,0046 | 82 | 210 982 | 25 502 | 0,1209 |
| 11 | 980 316 | 375 | 0,0004 | 47 | 926 773 | 4 863 | 0,0052 | 83 | 185 480 | 24 176 | 0,1303 |
| 12 | 979 941 | 342 | 0,0003 | 48 | 921 910 | 5 371 | 0,0058 | 84 | 161 305 | 22 252 | 0,1380 |
| 13 | 979 599 | 343 | 0,0004 | 49 | 916 539 | 5 882 | 0,0064 | 85 | 139 052 | 19 549 | 0,1406 |
| 14 | 979 256 | 376 | 0,0004 | 50 | 910 658 | 6 653 | 0,0073 | 86 | 119 503 | 17 698 | 0,1481 |
| 15 | 978 880 | 429 | 0,0004 | 51 | 904 005 | 7 364 | 0,0081 | 87 | 101 806 | 16 015 | 0,1573 |
| 16 | 978 451 | 458 | 0,0005 | 52 | 896 642 | 7 851 | 0,0088 | 88 | 85 791 | 14 980 | 0,1746 |
| 17 | 977 993 | 500 | 0,0005 | 53 | 888 791 | 8 765 | 0,0099 | 89 | 70 811 | 13 613 | 0,1922 |
| 18 | 977 493 | 570 | 0,0006 | 54 | 880 026 | 9 798 | 0,0111 | 90 | 57 197 | 12 118 | 0,2119 |
| 19 | 976 923 | 600 | 0,0006 | 55 | 870 227 | 10 833 | 0,0124 | 91 | 45 079 | 10 535 | 0,2337 |
| 20 | 976 323 | 645 | 0,0007 | 56 | 859 394 | 11 283 | 0,0131 | 92 | 34 545 | 8 912 | 0,2580 |
| 21 | 975 678 | 666 | 0,0007 | 57 | 848 111 | 12 201 | 0,0144 | 93 | 25 633 | 7 308 | 0,2851 |
| 22 | 975 012 | 721 | 0,0007 | 58 | 835 910 | 13 131 | 0,0157 | 94 | 18 325 | 5 778 | 0,3153 |
| 23 | 974 291 | 757 | 0,0008 | 59 | 822 779 | 14 520 | 0,0176 | 95 | 12 547 | 4 154 | 0,3310 |
| 24 | 973 534 | 841 | 0,0009 | 60 | 808 260 | 15 427 | 0,0191 | 96 | 8 394 | 2 917 | 0,3476 |
| 25 | 972 693 | 856 | 0,0009 | 61 | 792 832 | 15 995 | 0,0202 | 97 | 5 476 | 1 999 | 0,3650 |
| 26 | 971 837 | 934 | 0,0010 | 62 | 776 837 | 17 634 | 0,0227 | 98 | 3 478 | 1 333 | 0,3832 |
| 27 | 970 903 | 979 | 0,0010 | 63 | 759 203 | 18 567 | 0,0245 | 99 | 2 145 | 863 | 0,4025 |
| 28 | 969 924 | 1 063 | 0,0011 | 64 | 740 636 | 20 359 | 0,0275 | 100 | 1 282 | 542 | 0,4225 |
| 29 | 968 861 | 1 131 | 0,0012 | 65 | 720 277 | 21 959 | 0,0305 | 101 | 740 | 328 | 0,4431 |
| 30 | 967 730 | 1 234 | 0,0013 | 66 | 698 318 | 23 457 | 0,0336 | 102 | 412 | 192 | 0,4647 |
| 31 | 966 496 | 1 271 | 0,0013 | 67 | 674 861 | 25 019 | 0,0371 | 103 | 221 | 108 | 0,4909 |
| 32 | 965 225 | 1 535 | 0,0016 | 68 | 649 842 | 26 318 | 0,0405 | 104 | 112 | 58 | 0,5179 |
| 33 | 963 690 | 1 578 | 0,0016 | 69 | 623 524 | 28 418 | 0,0456 | 105 | 54 | 54 | 1,0000 |
| 34 | 962 111 | 1 613 | 0,0017 | 70 | 595 107 | 29 665 | 0,0498 | | | | |
| 35 | 960 499 | 1 759 | 0,0018 | 71 | 565 441 | 31 568 | 0,0558 | | | | |

## Həyatın yaşam sığortası qaydalarına Əlavə №2

*Hazırkı Əlavə Həyatın yaşam sığortası qaydalarının ayrılmaz tərkib hissəsini təşkil edir.*

### İllik faiz dərəcəsi və xərc əmsalları

**A. Sığorta müqaviləsində göstərilən bütün valyutaların AZN olduğu hal:**

Həyat sığortası sinifləri üzrə sığorta haqlarının hesablanması məqsədi ilə sığorta müddətinin hər bir sığorta ili üçün illik faiz dərəcəsinin maksimum həddi sığorta müqavilələrinin bağlandığı tarixə Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi ilə bağlı olaraq aşağıdakı kimi müəyyən edilmişdir:

| Sığorta müddətlərinin illəri | Sığorta müddətinin hər bir sığorta ili üçün maksimum illik faiz dərəcəsi |
|---|---|
| 1-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi + 0,75% |
| 2-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi + 0,50% |
| 3-cü | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi + 0,25% |
| 4-cü | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi + 0% |
| 5-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 0,25% |
| 6-cı | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 0,75% |
| 7-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 1,25% |
| 8-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 1,75% |
| 9-cu | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 2,25% |
| >=10-cu | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 2,75% |

**B. Sığorta müqaviləsində göstərilən bütün valyutaların AZN olmadığı hal:**

Bu halda, sığorta müqaviləsində göstərilən bütün valyutalar həmin müqavilənin bağlandığı tarixə Azərbaycan Respublikası Mərkəzi Bankının məzənnəsinə uyğun olaraq. AZN-lə ifadə olunmalı və A bəndində göstərildiyi kimi hesablamalar aparılmalıdır.

**C. Xərc əmsallarının qiymətləri**

Xərc əmsallarının qiymətləri aşağıdakı kimi müəyyən edilmişdir:

| | |
|---|---|
| $\alpha$ | 0,50% |
| $\beta$ (sığorta müqaviləsində göstərilən valyutalar AZN olduğu halda) | 0,30%-2,00% |
| $\beta$ (sığorta müqaviləsində göstərilən valyutalar AZN olmadığı halda) | 0,30%-3,50% |
| $\gamma$ | 0,25% |
| $\rho_1$ | 3,00% |
| $\rho_2$ | 1,50% |